## ARXEOLOGİYA VƏ ETNOQRAFİYA

**UOT 902**
**https://doi.org/10.59849/2218-4783.2026.1.89**

# BÜLÖVQAYA YAŞAYIŞ YERİNDƏ YENİ ARXEOLOJİ TƏDQİQATLAR

# NEW ARCHAEOLOGICAL RESEARCH AT THE BÜLÖVQAYA SETTLEMENT

**Vəli BAXŞƏLİYEV***

## XÜLASƏ

Cənubi Qafqazın, o cümlədən Azərbaycanın Yaxın Şərq ölkələri ilə əlaqələri həmişə tədqiqatçıların diqqət mərkəzində olmuşdur. XXI əsrin başlanğıcında Aruxlo, Şomutəpə, I Kültəpə və digər yaşayış yerlərinin Neolit dövrünə aid edilməsi ilə Son Neolit və Son Eneolit arasında yaratmış bölgələr arasındakı əlaqələrin davamlılığını izləməyə imkan verməmişdir. Ancaq 2010-2017-ci illərdə Naxçıvanda yeni qeydə alınan Erkən Eneolit dövrünə aid Uçan Ağıl, Naxçıvantəpə və Bülövqaya kimi yaşayış yerləri bu boşluğu doldurmaqla, Yaxın Şərq ölkələri ilə əlaqələrin bu dövrdə də davam etdiyini deməyə imkan verdi. 2024-2025-ci illərdə Bülövqaya yaşayış yerində Ubeyd tipli boyalı keramikanın aşkar olunması e. ə. V minillikdə Mesopotamiya ilə Naxçıvan arasında iqtisadi-mədəni əlaqələrin genişləndiyini göstərir. Bülövqayada Dalma Təpə mədəniyyəti üçün xarakterik olan basmanaxışlı və qırmızı boyalı keramikanın aşkar olunmaması göstərir ki, e. ə. V minilliyin birinci yarısında Urmiya hövzəsi, Şərqi Anadolu və Naxçıvanı əhatə edən bir bölgədə Ubeyd mədəniyyətinin təsiri ilə Dalma Təpə mədəniyyətindən fərqli bir mədəniyyət formalaşmışdır.

**Açar sözlər:** *Yaxın Şərq, Cənubi Qafqaz, Naxçıvan, Ubeyd mədəniyyəti, boyalı keramika.*

## ABSTRACT

The relations of the South Caucasus, including Azerbaijan, with the countries of the Near East always have been in the focus of researchers. At the beginning of the 21st century, the attribution of Aruhlo, Shomutepe, I Kültepe and other settlements to the Neolithic period did not allow us to trace the continuity of relations between the regions that formed between the Late Neolithic and Late Chalcolithic. However, the newly found Early Chalcolithic settlements of Uçan Ağıl, Nakhchivan Tepe and Bülövqaya in Nakhchivan in 2010-2017 filled this gap, allowing us to say that relations with the countries of the Near East continued during this period. The discovery of Ubaid-type painted ceramics at the Bülovqaya settlement in 2024-2025 indicates the intensifying of economic and cultural relations between Mesopotamia and Nakhchivan in the 5th millennium BC. The absence of impression and red slipped ceramics characteristic of the Dalma Tepe culture in Bülövqaya indicates that in the first half of the 5th millennium BC under the influence of the Ubaid culture was formed a culture different from the Dalma Tepe culture in the Urmia Basin, Eastern Anatolia and Nakhchivan.

**Keywords:** *Near East, South Caucasus, Nakhchivan, Ubaid Culture, Painted Pottery.*

## GİRİŞ

Cənubi Qafqazın, o cümlədən Azərbaycanın Yaxın Şərq ölkələri ilə əlaqələri arxeoloji ədəbiyyatda tədqiqatçılar tərəfindən geniş şəkildə araşdırılmışdır. Cənubi Qafqazda keramikasız Neolit dövrünün aşkar olunmamasına əsaslanan bir qrup tədqiqatçı hələ Sovet dövründən başlayaraq Neolit mədəniyyətinin Cənubi Qafqaza köç yoluyla gəldiyini qeyd etmişlər [Мерперт, 1978, s. 18-19;

* AMEA Naxçıvan Bölməsi, Naxçıvan Dövlət Universiteti, e-mail: velibahshaliyev@mail.ru
ORCİD: 0000-0002-4914-3016

Массон, 1964, s. 407]. Lakin Cənubi Qafqazın Neolit yaşayış yerlərində Xalaf tipli keramika tək-tək nümunələrlə aşkar olunmuşdu. Digər tərəfdən Naxçıvan Kültəpəsində başlıca olaraq Cənubi Qafqazın obsidianın [Bakhshaliyev & Bakhshaliyev, 2023, s. 35-36], metallurgiya və metalişləmədə yerli xammal mənbələrindən istifadə edilməsi [Bakhshaliyev, 2005, s. 16-29], fauna və flora növlərinin yerli olması, arxitekturanın isə Yaxın Şərq nümunələrini təkrar etməməsi diqqət çəkirdi. Buna görə də bir qrup tədqiqatçı Yaxın Şərq mədəniyyətlərinin Cənubi Qafqaz ölkələrinə iqtisadi-mədəni əlaqələr nəticəsində gəldiyini qeyd etmişdi [Bakhshaliyev, 2022, s. 149]. Ancaq az miqdarda olan tapıntılar bu əlaqələri izləməyə imkan vermirdi. Bunun başlıca səbəblərindən biri XXI əsrin başlanğıcında Aruxlo, Şomutəpə, I Kültəpə və digər yaşayış yerlərinin Neolit dövrünə aid edilməsi ilə Son Neolit və Son Eneolit arasında yaranan boşluq idi. 2010-2017-ci illərdə Naxçıvanda yeni qeydə alınan Erkən Eneolit dövrünə aid Uçan Ağıl, Naxçıvantəpə və Bülövqaya kimi yaşayış yerləri bu boşluğu doldurmaqla, Yaxın Şərq ölkələri ilə əlaqələrin bu dövrdə də davam etdiyini deməyə imkan verdi. Ancaq bu əlaqələrin necə baş verdiyi indiyədək tam olaraq aydınlaşdırılmamışdır. Tədqiqatçılar bunu ticarət, dəyişim, maddi malların daşınması, köç və digər mədəniyyətlərin xüsusiyyətlərinin yayılması ilə bağlamışlar [Tonoike, 2012, s. 65-80]. A.Özfıra və K.Maronun fikrinə görə isə bu əlaqələr Mesopotamiyadan gələn köçərilərin yaratdığı koloniyalar vasitəsilə həyata keçirilmişdir [Özfırat-Marro, 2007, s. 1-20]. Bu koloniyalar qonşu qəbilələrlə ticarət, iqtisadi və mədəni əlaqələrin inkişafına kömək etmişdir. Bu baxımdan Bülövqaya yaşayış yerində aşkar olunan yeni tapıntılar Yaxın Şərq ölkələri ilə əlaqələri kəsintisiz şəkildə öyrənmək üçün olduqca əhəmiyyətlidir.



**Şəkil 1.** Bülövqaya yaşayış yerinin görünüşü.

## BÜLÖVQAYANIN ARXEOLOJİ TƏDQİQİ

Bülövqaya yaşayış yerində arxeoloji tədqiqatlar 2025-ci ilin iyun-iyul aylarında aparılmışdır (şəkil 1). Arxeoloji tədqiqatlar əvvəlki üç sahədə – Bülövqaya C (3), Bülövqaya D (4), Bülövqaya E (5) sahələrində davam etdirilmiş və dörd yeni sahədə, F (6), G (7), H (8) və I (9) aparılmışdır. Tədqiqatın gedişində rənginə görə bir-birindən fərqli iki layın olduğu müəyyən edilmişdir. Üstdəki birinci lay keramika, əmək alətləri, heyvan sümüyü, obsidian və digər daş alətlər tapılan boz rəngli

torpaq qatlarından ibarət idi. Bu təbəqədə yalnız altıncı sahədə içərisi küllə dolu ocaq qalıqları aşkar olunmuşdur. Lakin keramika nümunələrinin üfüqi vəziyyətdə olması, əmək alətləri və torpağa basdırılmış həvənglər burada insanların müxtəlif dövrlərdə məskən saldığını göstərir.

İkinci tikinti qatı ağ rəngli kül qarışıq torpaq laylarından ibarət idi. Burada ocaqlar və ev yerləri daha aydın şəkildə izlənirdi. Arxeoloji tapıntılar daha yaxşı qalmışdı.

Bu il aparılan qazıntıların əsas məqsədi yaşayış yerinin planını müəyyənləşdirmək idi. Buna görə də qazıntı sahəsi genişləndirildi.




**Şəkil 2.** Bülövqaya yaşayış yeri. Birinci tikinti qatının planı.

## I TİKİNTİ QATI

Bu tikinti qatı ən üstə yerləşirdi və onun qalınlığı relyefdən asılı olaraq dəyişirdi. 2025-ci ildə F sahəsində aparılan araşdırmalar nəticəsində sahənin cənub tərəfində dördkünc formalı evin qalıqları aşkar olundu. Evin uzunluğu 4 m, eni 3 m idi. Bu birinci tikinti qatında aşkar olunan altıncı (şəkil 2, VI) evin qalığı idi. Tədqiqat zamanı evin içərisindən keramika və obsidian parçaları aşkar olundu. Qazıntı sahəsinin şimal tərəfində içərisi küllə dolmuş dairəvi formalı ocaq var idi. Ocağın divarları alovun təsirindən qızarmışdı. Diametri 0,60 m idi (şəkil 2). Qeyd edək ki, qazıntının bu sahəsində mədəni təbəqə olduqca az yığılmışdı. Sahənin cənub hissəsində təbəqənin qalınlığı 20-40 sm arasında idi. Bu qatdan aşağıda sərt torpaq layları və qaya parçaları aşkar olundu.

Arxeoloji tədqiqatlar zamanı yeddinci G sahəsində yuvarlaq dirək yerlərinə əsasən üç evin qalığı müəyyən edildi. Dirək yerləri dördkünc formalı evlərin planını müəyyən etməyə imkan verirdi. Yeddinci ev (şəkil 2, VII) sahənin cənub tərəfində idi. Evin uzunluğu 4 m, eni 3 m idi. Tədqiqat zamanı evin içərisindən keramika və obsidian parçaları aşkar olundu. Səkkizinci ev (şəkil 2, VIII) onunla yan-yana yerləşirdi. Bu evin uzunluğu 4 m, eni 3 m idi. Doqquzuncu evin (şəkil 2, IX) qalıqları sahənin şimal tərəfində yerləşirdi. Bu evə aid yalnızca üç dirəyin yeri aşkar olundu. Evin içərisində xeyli miqdarda keramika, obsidian parçaları, onun şimal tərəfində isə bir hissəsi qırılmış

dən daşı aşkar olundu. Bu evlərin arasında bazaltdan hazırlanmış, irihəcmli həvəng, həvəngin ətrafında isə relyef kəmər üzərindən barmaq basqısı ilə naxışlanmış iri həcmli qabın parçaları aşkar edildi. Həvəng üzü üstə çevrilərək çuxurun içərisinə yerləşdirilmiş, Üzəri yastı daş lövhələrlə qapadılmışdı. Ehtimal ki, mövsüm bitdikdən sonra gələcəkdə istifadə etmək üçün həvəngi çuxura yerləşdirərək üzərini qapatmışlar. Altıncı sahədən aşkar olunan ocaq qalığı yaşayış yerinin bu sahəsində təsərrüfatla bağlı müəyyən işlərin olduğunu göstərir. Bu sahədə mədəni təbəqənin qalınlığı relyefdən asılı olaraq 20-40 sm arasında yığılmışdı.

Səkkizinci (H) sahədə aparılan qazıntılar zamanı iki evin qalığı aşkar olundu. Onuncu evin (şəkil 2, X) qalığı sahənin cənub tərəfində idi. Evin uzunluğu 4 m, eni 3 m idi. On birinci ev (şəkil 2, XI) onun şərq tərəfində yerləşirdi. Bu evin də uzunluğu 4 m, eni 3 m idi. Evlərin içərisindən az miqdarda keramika, obsidian parçaları və heyvan sümüklərinin qalıqları aşkar olundu. Qazıntı mövsümünün sonu olduğundan bu sahə sonadək tədqiq edilə bilmədi.

Doqquzuncu sahədə aparılan qazıntılar zamanı birinci tikinti qatına aid laylardan keramika, obsidian və heyvan sümüyünün qalıqları aşkar olundu. Bu sahədəki torpaq layları digərlərində olduğu kimi çox sərt idi. Qazıntı mövsümünün sonu olduğundan bu sahənin cənubunda beşinci sahədəki evin planını tam müəyyən etmək üçün 5x5 m sahədə qazıntı davam etdirildi, digər sahələrdə isə dayandırıldı. Tədqiqat zamanı ikinci tikinti qatına aid təbəqədən xeyli keramika məmulatı, obsidian parçaları və heyvan sümükləri aşkar olundu.




**Şəkil 3.** Bülövqaya yaşayış yeri. İkinci tikinti qatının planı.

## II TİKİNTİ QATI

D və E sahələrində keçən ildən qalan döşəmə qalıqları təmizlənmiş, heyvan sümükləri, keramika və obsidian aşkar olunmuşdur. 2024-cü ildə C sahəsində tədqiqatlar bitmədiyindən bu sahə yenidən araşdırılmış və dördkünc formalı evlərin qalıqları aşkar olunmuşdur. Bu evin bir qismi qazılmamış sahənin altında qalmışdı. Bu il həmin sahə tədqiq edildi və evin tam planı müəyyən edildi. Bu ikinci tikinti qatında aşkar olunan birinci ev idi (şəkil 3, I). Onun içərisindən keramika nümunələri, heyvan sümüklərinin qalıqları və obsidian parçaları aşkar olundu. Evin uzunluğu 4,30 m, eni

4 m idi. Bu sahənin şimal-qərb hissəsində yerləşirdi (şəkil 3). Tədqiqat zamanı sahənin şimal-qərb hissəsində dördkünc formalı evin qalıqları aşkar olundu. Bu ikinci tikinti qatında aşkar olunan yeddinci ev idi (şəkil 3, VII). Onun uzunluğu 4 m, eni 3 m idi. Evin içərisindən heyvan sümükləri, obsidian qalıqları, daş əmək alətləri və keramika nümunələri, o cümlədən boyalı keramika aşkar olunurdu.

Bu tikinti qatına aid iki evin qalığı yeddinci sahədə aşkar olunmuşdur. Səkkizinci evin qalığı (şəkil 3,VIII) sahənin cənub tərəfində yerləşirdi. Onun uzunluğu 4, 50, eni 3 m idi. Evin içəri hissəsi tədqiq edilərkən evin cənub tərəfində evin şərq divarına yerləşdirilən uzun yastı daş lövhə, onun yaxınlığında isə döşəməyə düzülmüş yastı daş lövhələr aşkar olunmuşdur. Bu, döşəmənin bəzi hissələrinin yastı daş lövhələrlə möhkəmləndirildiyini göstərir. Tədqiqat zamanı evin içərisindən keramika, obsidian və heyvan sümüyünün qalıqları aşkar olunmuşdur. Doqquzuncu evin (şəkil 3, IX) qalığı, səkkizincidən şərqdə, onunla yan yana yerləşirdi. Bu evin uzunluğu 4, 50, eni 3, 50 m idi. Evin içərisində cənub-şərqdə yerləşən küncdə döşəməyə yerləşdirilmiş yastı daş lövhələr, onun yaxınlığında isə qızarmış torpaq layları aşkar olundu. Bu evin içərisindən keramika, obsidian və heyvan sümüyünün qalıqları aşkar olundu. Bu sahədə mədəni təbəqə 80-90 sm arasında yığılmışdı. Bu evlərin arasında az miqdarda kül və qızarmış torpaq olsa da ocaq yerləri aşkar olunmadı. Evin döşəməsi bu tikinti qatına aid digər evlərdə olduğu kimi ağ rəngli gil layı ilə örtülmüşdü.

## TİKİNTİ QALIQLARI

Bülövqaya yaşayış yerində bu il aparılan arxeoloji araşdırmalar göstərir ki, yaşayış yeri üçün dördkünc planlı yüngül konstruksiyalı evlərin xarakterik olduğunu təsdiq edir. Bu ilin qazıntıları zamanı birinci layda altı, ikinci layda isə üç evin qalıqları aşkar olunmuşdur. Altıncı sahədə təbəqə az olduğundan burada ikinci tikinti qatına aid evlər aşkar olunmamışdır. İkinci tikinti qatına aid iki evin qalığı yeddinci sahədə, bir evin qalığı isə üçüncü sahədə aşkar olunmuşdur. Bu ilki qazıntılar zamanı birinci layda bir dairəvi ocaq yeri, ondan bir qədər aralıda isə həvəng və dən daşları aşkar olunmuşdur. Döşəməyə basdırılmış təsərrüfat küpləri qeydə alınmamışdır. Tədqiqatlara əsasən demək olar ki, alt laydakı evlərin içərisi düzəldilmiş, evlər dirəklər vasitəsi ilə qurularaq yüngül konstruksiya ilə tamamlanmışdır. Ocaqlar başlıca olaraq evlərdən kənarda yerləşən təsərrüfat sahələrində aşkar olunmuşdur. Evlərin döşəməsində ağ rəngli gil qalıqları qalmışdır. Dairəvi formalı ocaqların və təsərrüfat çuxurlarının da döşəməsində ağ rəngli gil qalıqlarına rast gəlinmişdir. Dən daşları evlərin içərisindən tapılsa da, təsərrüfat sahələrində də dən daşları və əmək alətləri aşkar olunmuşdur. Ocaqların içərisində obsidian qəlpələrinin aşkar olunması göstərir ki, qədim sakinlər obsidian alətləri həm də ocağın ətrafında, təsərrüfat sahələrində hazırlamış, ərzaq məhsullarını da burada emal etmişlər. Yaşayış yerində müxtəlif maddi mədəniyyət qalıqlarının tapılmasına baxmayaraq heyvan sümükləri və keramika məmulatı olduqca çoxdur. Ehtimal ki, keramika məmulatının bir qismi yaşayış yerində hazırlanmışdır. Arxitektura qalıqları və qazıntı zamanı izlənən tapıntılar yaşayış yerinin birtəbəqəli olduğunu və bu mədəniyyətin iki mərhələdən keçdiyini göstərir. Araşdırmalar yaşayış yerində yaranan bir-birindən fərqli iki layın iqlimlə bağlı olduğunu göstərir. İlk vaxtlar iqlim yağmurlu, sonralar isə quraq olmuşdur. Üst layda ocaq qalıqlarının az olması, ehtimal ki, yaşayış yerində həyatın mövsümi xarakterdə olması və quraqlıqla bağlı olaraq burada insanların daha az yaşaması ilə bağlı olmuşdur. Belə hesab edirik ki, bu köçmə maldarlığın intensivləşməsi ilə bağlı olmuşdur. Qeyd etmək istəyirik ki, ikinci tikinti qatındakı dairəvi formalı ocaqların ətrafı 10-15 sm qalınlığı olan gil badla əhatə olunmuşdur. Gil badlar odun təsirindən qızarmışdır. Onların birinin içərisindən götürülən kül qalıqlarının analizi qədim sakinlərin dağdağan bitkisindən istifadə etdiyini göstərir. Arxeoloji tədqiqatlar zamanı dairəvi və oval formalı keramika sobalarının qalıqları da aşkar olunmuşdur.

## KERAMİKA MƏMULATI

Bülövqaya yaşayış yerindən 2025-ci ildə aşkar olunan tapıntıların əksəriyyəti keramika məmulatından ibarətdir. Keramika məmulatını dörd qrupa ayırmaq olar. **Birinci qrupa** daxil olan keramika məmulatı üstünlük təşkil edir. Keramika məmulatının əksəriyyətini (90%) sadə keramika təşkil edir. Bu qrupdakı keramika saman, bəzən həm saman, həm də qum qarışığı olan gildən, bəzən isə qarışığı olmayan gildən hazırlanaraq çəhrayı rəngin müxtəlif tonlarında bişirilmişdir. Bu qrupa kasa, küpə, çölmək tipli qablar aiddir. Onlar arasında iri təsərrüfat küplərinin də parçaları vardır. Bu qrupda az da olsa nazik divarlı, kiçik həcmli qabarıq gövdəli kasalar da vardır. Ehtimal ki bu qrupdakı qablar daha çox ərzaq məhsullarının saxlanılması və süfrə qabları kimi istifadə olunmuşdur. Onların bəzilərinin səthində qaba saman qarışığı aydın şəkildə izlənilir (şəkil 4, 1-6).




**Şəkil 4.** Sadə və boyalı keramika.

**İkinci qrup** keramika naxışlıdır. Onlar qabartma naxışla, bəziləri isə qabarıq məməciklərlə naxışlanmış, bəzilərinin üzərində üfüqi barmaq izləri qalmışdır. Keramika nümunələrinin bəzisi relyef kəmər üzərindən çəkilən çərtmələrlə naxışlanmışdır. Qulplar olduqca azdır. Qulplar buynuzşəkilli olub qabların gövdəsindən yuxarıya doğru yüksəlir (şəkil 5). Bu tip qulplar Naxçıvanın Neolit və Eneolit mədəniyyəti üçün xarakterikdir. Son Eneolit dövründə belə qablara olduqca az rast gəlinir. Keramika məmulatı nazik gil təbəqələri bir-birinin üzərinə yapışdırmaqla hazırlanmışdır. Bəzi keramika məmulatının üzəri daraqvarı alətlə naxışlanmışdır. Bu tip keramika da azdır və keramika məmulatının yalnızca 1% təşkil edir.

Bəzi qabların ağız kənarı çərtmələrlə naxışlanmışdır. Həsir izi yalnızca bir keramika parçasının üzərində rast gəlinmişdir. Bu tip keramika məmulatı adətən yaxşı, bəzən isə qeyri-bərabər bişirilmişdir. Lakin onların bəzisinin divarları arasında qara, yaxud boz rəngli təbəqəyə rast gəlinir ki, bu da onların lazımınca oksigen almadığını və yaxşı bişmədiyini göstərir. Qabların oturacaqları yastı, xaricə doğru çıxıntılı və yuvarlaq şəkildədir.

Üst laydan aşkar olunan keramika məmulatının səthi hər iki üzdə qalın ərplə örtülmüşdür ki, bu da keramikanın rəngini və xüsusiyyətlərini izləməyə imkan vermir. Lakin qablar parçalar halında aşkar olunduğundan kəsikdə onların rəngini və tərkibini izləmək mümkündür.




**Şəkil 5.** Qabartma və cızmanaxışlı keramika.

**Üçüncü qrupa** daxil olan keramika başlıca olaraq qum, bəzən isə saman və qum qarışığından hazırlanaraq qəhvəyi rəngdə qeyri-bərabər bişirilmiş, bəzən isə üzəri hislənmişdir (şəkil 6, 1-10). Qabların bəzisinin diblərində qara rəngli maddənin qalığı saxlanmışdır. Qabların divarları arasında yaxşı bişməmiş təbəqə qalmışdır. Bəzi keramika nümunələrinin üzəri daraqvari alətlə düzəldilmişdir. Bu qrupa daxil olan qablar başlıca olaraq qazan tipli qablardan, küpələrdən ibarətdir. Bəzi qabların gövdəsinin ortasında, buynuzşəkilli qulpları vardır. Bu tip keramika məmulatının bəzilərinin ağız hissəsində, bəzisinin isə gövdəsində güclü hislənməyə rast gəlinir, bəzilərinin isə gövdəsində aşınma izləri vardır. Tədqiqatlar zamanı bu tip qabların ocaqların içərisindən aşkar olunması onların mətbəx qabları kimi istifadə olunduğunu göstərir.

İndiyədək bu tip keramika məmulatının yalnızca Son Eneolit üçün və Sioni mədəniyyəti üçün xarakterik olduğu söylənsə də araşdırmalar bu tip keramikanın Sioni mədəniyyətinin formalaşmasından xeyli əvvəl Erkən və Orta Eneolit dövründə mövcud olduğunu göstərir. Naxçıvan abidələrindən aşkar olunan tapıntılar bu tip keramika məmulatının təsərrüfatda müxtəlif məqsədlərlə istifadə olunduğunu deməyə imkan verir.

Bülövqayadan aşkar olunan **dördüncü qrup** keramika boyalı keramikadır (şəkil 4, 7-11). Boyalı keramika forma verən keramika məmulatının 27,4%-ni təşkil edir. İndiyədək Cənubi Qafqazın heç bir abidəsində bu qədər boyalı keramikaya rast gəlinməmişdir. Onların gilinə saman, bəzən narın, yaxud iri qum qatılmış, yaxşı bişirilmişdir. Bununla belə, yaxşı bişməyən parçalar da vardır. Boyalı keramikanı boyanma texnikasına görə iki qrupa bölmək olar. Birinci qrupdakılar əksəriyyət təşkil edir. Bu qrupdakı qabların sarı anqobla örtülmüş səthinə, bəzən isə bir başa qabların səthinə qəhvəyi rənglə çəkilmişdir. İkinci qrupdakılar isə qırmızı anqob üzərindən qəhvəyi, yaxud qara rənglə çəkilmişdir. Birinci qrup keramika Ubeyd mədəniyyəti, ikinci qrup keramika isə Urmiya hövzəsinin Eneolit mədəniyyəti üçün xarakterikdir. Keramika nümunələrinin az bir qismində naxışlar bitiumla çəkilmişdir. Boyalı keramikanın naxış motivlərinin demək olar ki, hamısı Ubeyd mədəniyyətindən məlumdur. Lakin Bülövqayada üst-üstə yerləşdirilmiş üçbucaq motivləri üstünlük təşkil edir. Bu keramika məmulatının lokal istehsalı ilə bağlı ola bilər.




**Şəkil 6.** Qəhvəyi və qara rəngli keramika.

Naxış motivləri olduqca müxtəlifdir. Bunlar arasında dalğalı xətlər, düz xətlər, yuvarlaq dairələr, bir-biri üzərində yerləşdirilmiş üçbucaqlar vardır. Lakin bir-biri üzərində yerləşdirilmiş üçbucaqşəkilli naxışlar və sünbülşəkilli naxışlar üstünlük təşkil edir. Ehtimal ki, bu naxışların müəyyən simvolik mənası da olmuş, sünbülvari naxışlar bitkiləri, üçbucaqlar isə dağları simvolizə etmişdir.

Bülövqaya yaşayış yerində aşkar olunan keramika məmulatının əksəriyyətini çəhrayı rəngdə, saman qarışıq gildən hazırlanmış keramika təşkil edir. Ümumiyyətlə, araşdırmalar saman qarışıq keramikanın Naxçıvanda Neolit dövründən mövcud olduğunu göstərir. Buna görə də bəzi tədqiqatçıların Leylatəpə mədəniyyətinə aid saman qarışıq keramikanın Mesopotamiyadan gətirildiyini irəli sürməsi, guya ki, bu tip keramikanın Cənubi Qafqazda yalnızca Son Eneolit dövründə yayılmasını irəli sürməsi olduqca qəribədir. Araşdırmalar göstərir ki, Azərbaycanda Neolit dövründən istehsal edilən saman qarışıq keramika, Naxçıvanda isə Eneolit dövrünün müxtəlif mərhələlərində istifadə olunmuşdur.

**Beşinci qrup** keramika qara rəngdə bişirilmişdir. Onlar saman, qum, bəzən isə qatqısı olmayan gildən hazırlanmış yaxşı bişirilmişdir. Bəzilərinin xarici səthinə, bəzilərinin isə içərisinə qara boya çəkilmişdir. Qabların xarici səthi cilalanmışdır. Bir nümunənin üzərində Yaxın Şərqin Neolit keramikasında rastlanan üfüqi cızma bəzəməyə rast gəlinmişdir (şəkil 6, 11-12).

## DAŞ QABLAR

Bülövqayada daşdan hazırlanmış bir neçə qab tapılmışdır. Onların yalnız parçaları aşkar olunmuşdur. Bunlar kasa tipli qabların parçalarından ibarət olub bazalt daşını yonmaqla hazırlanmışdır. Bu qablar formaca gildən hazırlanmış qablarla oxşardır.

## DAŞDAN HAZIRLANMIŞ ƏMƏK ALƏTLƏRİ

Bülövqaya yaşayış yerindən aşkar olunan əmək alətlərinin bir qismi bazaltdan, bir qismi isə çay daşından hazırlanmışdır. Bazalt alətlərin bir qismi dən daşlarından ibarətdir. Bu tip əmək alətləri başlıca olaraq boz rəngli bazalt daşından hazırlanmışdır. Onların bəzən bütöv halda, bəzən isə parçalanmış halındadır. Dən daşları başlıca olaraq evlərin içərisindən, ocaqların ətrafından aşkar olunmuşdur. Bülövqayadakı dən daşları trassoloji analiz edilmədiyindən onların hansı məqsəd üçün istifadə olunduğunu demək çətindir. Lakin Naxçıvanda aparılan araşdırmalar bu tip alətlərin olduqca müxtəlif məqsədlər üçün istifadə olunduğunu təsdiq edir. Bu alətlər dənlə bərabər həmçinin duz üyüdülməsində və metalların zənginləşdirilməsində də istifadə olunmuşdur.

Əmək alətlərinin bir qismi qazıyıcı alətlərdən ibarətdir. Onların bəzisi deşiksiz olmaqla yaşayış yerindəki yerli qum daşından hazırlandığından tez qırılır. Bu alətlərin bir ucu sivriləşdirilmiş və işlənmədən çatlamışdır. Alətlərin birinin üzərində açılmamış deşiyin izləri qalmışdır.

## CİLALAYICI ALƏTLƏR VƏ ZƏRB ALƏTLƏRİ

Zərb alətləri xeyli miqdarda aşkar olunmuşdur. Onlar başlıca olaraq oval formalı çay daşlarındandır. Alətlərin uc hissəsində işlənmə və aşınma izləri vardır. Digər alətlər cilalayıcılardan ibarətdir. Bu tip alətlərin bir ucu yastıdır və üzəri işlənmə nəticəsində cilalanmışdır.

## OBSİDİAN VƏ ÇAXMAQDAŞI ALƏTLƏR

Bülövqayadan aşkar olunan əmək alətlərinin bir qismi obsidian və çaxmaqdaşından hazırlanmışdır (şəkil 7). Məlum olduğu kimi, Cənubi Qafqazda çox sayda xammal yataqları, o cümlədən obsidian və mis yataqları vardır. Urmiya hövzəsində obsidian olmadığından bu bölgədə yerləşən qəbilələr Cənubi Qafqaznın obsidian yataqlarından istifadə etmişlər. Obsidian qədim dünyanın əkinçilik və heyvandarlıqla məşğul olan qəbilələri üçün olduqca önəmli olduğundan Cənubi Qafqaz ilə Urmiya hövzəsi arasındakı əlaqələrin qurulmasına imkan vermişdir. Sirabçay vadisinin Son Eneolit abidələrində olduğu kimi, Bülövqayada obsidian alətlər çox azdır. Lakin çox sayda obsidian qəlpələri aşkar olunmuşdur. Araşdırmalar göstərir ki, Naxçıvanın Neolit və Eneolit dövrü yaşayış yerlərində başlıca olaraq Göyçə hövzəsi və Zəngəzur obsidianından istifadə olunmuşdur. Əgər Ovçulartəpədə Göyçə obsidianı üstünlük təşkil edirsə, Sirabçay vadisinin Son Eneolit abidələrində Zəngəzur obsidianı üstünlük təşkil edir. Bülövqaya obsidianlarının yalnızca bir qismi analiz edilmişdir. Analizlər Bülövqayada başlıca olaraq Zəngəzur, qismən isə Meydandağ obsidianının üstünlük təşkil etdiyini göstərir. Araşdırmalar göstərir ki, obsidian yataqlarından istifadə yaşayış yerlərinin coğrafi mövqeyi ilə bağlı olmuşdur. Ehtimal ki, Bülövqayada Zəngəzur obsidianı üstünlük təşkil etməsi də bununla bağlıdır.

Çaxmaqdaşından hazırlanan əmək alətləri də azdır. Onlar uzunsov formalı oraq dişlərindən ibarətdir. Onların bəzisi piramidal, bəzisi isə prizmatik nukleuslardan qoparılaraq hazırlanmışdır. Bəzi lövhələr hər iki tərəfdən yaxşı retuşlanmış, bəziləri isə retuşlanmamışdır. Şübhəsiz ki, bu tip əmək alətləri oraq dişləri kimi, yaxud da digər alətlərin qurama hissəsi kimi istifadə olunmuşdur.



**Şəkil 7.** Obsidian və çaxmaqdaşı alətlər.

## DƏYƏRLƏNDİRMƏ

Bülövqaya yaşayış yerinin tapıntıları e. ə. VII-VI minilliklərdə Cənubi Qafqaz və Yaxın Şərq-lə başlayan əlaqələrin e. ə. V minillikdə daha da intensivləşdiyini göstərir [Bakhshaliyev və d., 2024, s. 17]. İqtisadi-mədəni əlaqələrin güclənməsi, həmçinin Cənubi Qafqazın xammal mənbələri, o cümlədən bol otlaqları, zəngin mis və obsidian yataqları miqrasiyaların da artmasına səbəb olmuşdur. E. ə. VI minilliyin sonu, V minilliyin əvvəlində Naxçıvanda Dalmatəpə mədəniyyətinin meydana çıxması da bu miqrasiyalarla bağlı olmuşdur [Bakhshaliyev & Bakhshaliyev, 2021 s. 193-194]. Naxçıvantəpə və Bülövqayadan aşkar olunan Xalaf-Ubeyd tipli keramika məmulatı [Bakhshaliyev & Bakhshaliyev, 2023, s. 18-20] göstərir ki, bu miqrasiyalar qarşılıqlı olmuş, Xalaf və Ubeyd mədəniyyətləri də Dalmatəpə mədəniyyətinin formalaşmasına təsir etmişdir. Lakin qeyd etmək lazımdır ki, Bülövqaya yaşayış yerinin keramika məmulatı, istər sadə, istərsə də boyalı keramikasında Ubeyd mədəniyyətinin güclü təsiri özünü göstərməkdədir. Ancaq qeyd etmək lazımdır ki, Dalma Təpə mədəniyyəti üçün xarakterik olan basmanaxışlı (impression) və qırmızı boyalı keramikanın (red slipped) Bülövqayada yoxdur. Bülövqaya keramikasında yerli Neolit mədəniyyətinin və Şərqi Anadoluda formalaşan mədəniyyətlərin izlərini də görmək mümkündür. Digər tərəfdən Bülövqaya yaşayış yerinin boyalı keramikası da özünəməxsus xüsusiyyətləri ilə Ubeyd boyalılarından fərqlənir. Buna görə də deyə bilərik ki, Ubeyd mədəniyyətinin şimala təsiri nəticəsində Naxçıvan, Urmiya hövzəsi və Şərqi Anadolunu əhatə edən bir bölgədə yeni bir mədəniyyətin formalaşmışdır. Tədqiqatlar göstərir ki, bu Şimali Mesopotamiyada məskən salan Ubeyd tayfaların şimala doğru hərəkəti ilə bağlı olmuşdur. Ancaq Ubeyd tayfalarının şimala doğru hərəkəti birdən birə deyil tədricən baş vermiş və tədqiqatçıların qeyd etdiyi kimi dinc xarakter daşımışdır [Stein, 2012, s. 23-44].

## NƏTİCƏ

Bülövqaya yaşayış yerinin tədqiqi burada köçmə maldarlıq və mədənçiliklə məşğul olan tayfaların məskən saldığını deməyə imkan verir. Araşdırmalar göstərir ki, heyvandarlıqda iribuynuzlu

heyvanlar üstünlük təşkil etmişdir. Yaşayış yerində Ubeyd tipli boyalı keramikanın aşkar olunması e. ə. V minillikdə Mesopotamiya ilə Naxçıvan arasında iqtisadi-mədəni əlaqələrin genişləndiyini göstərir. Bülövqayada Dalma Təpə mədəniyyəti üçün xarakterik olan basmanaxışlı və qırmızı boyalı keramikanın aşkar olunmaması göstərir ki, e. ə. V minilliyin birinci yarısında Urmiya hövzəsi, Şərqi Anadolu və Naxçıvanı əhatə edən bir bölgədə Ubeyd mədəniyyətinin təsiri ilə Dalma Təpə mədəniyyətindən fərqli bir mədəniyyət formalaşmışdır. Bu mədəniyyəti Bülövqaya mədəniyyəti adlandırırıq.

## ƏDƏBİYYAT

Bakhshaliyev, V. (2005). *Ancient metallurgy and metalworking on the territory of Nakhchivn*. Baku: Elm.

Bakhshaliyev, V. (2022). Archaeological Excavations at the Settlement Kültepe I. *Rossijskaja archaeologija*, 2, 139-152. https://doi.org/ 10.31857/S0869606322010032.

Bakhshaliyev, E. & Bakhshaliyev, V. (2021). The Neolithic layer of the Nakhchivan Tepe settlement. *Rossijskaja archaeologija*, 2, 187-197. https://doi.org/ 0.31857/S086960630015375-1.

Bakhshaliyev, V., & Bakhshaliyev, E. (2023). *Origin of Dalma Tepe Culture*. Ajami.

Bakhshaliyev, V., Marro, C., Berthon, R. & Orange, M. (2024). New data on the Connections of the Ancient Settlers of Nakhchivan with the Near East. *Rossijskaja archaeologija*, 1, 7-21.

Özfırat, A. & Marro, C. (2007). 2004 Yılı Van, Ağrı ve İqdır İlleri Yüzey Araştırması. *Türk Arkeoloji ve Etnografi Dergisi*, 7, 1-20.

Merpert, N.Y. (1978). Migrations in the Period of Neolithic and Chalcolithic. *Rossijskaja arhaeologija*, 3, 9-28.

Masson, V.M. (1964). *Middle Asia and Ancient East*. Nauka.

Tonoike, Y. (2012). Petrographic Analysis of the 6th Millennium B.C. Dalma Ceramics from Northwestern and Central Zagros. *İranian Journal of Archaeologıcal Studies*, 2, 2, 65-80.

Stein, G. (2012). Local Identities and Interaction Spheres: Modeling Regional Variation in the Ubaid Horizon, *Beyond the Ubaid transformation and integration in the late Prehistoric societies of the Middle East. Edited Beyond the Ubaid. Transformation and integration in the late Prehistoric societies of the Middle East. İnternational Workshop held at Grey College, University of Durham, 20-22 april 2006*, 23-44.

**Daxilolma tarixi: İlkin variant 17.02.2026**
**Son variant 06.03.2026**